

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 242 (20.896)

25 dekabr 2013-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Dekabrın 24-də Bakının Yeni Ramana qəsəbəsində Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinin yenidənqurmadan sonra açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər.

Prezident İlham Əliyev və Mehriban Əliyeva əvvəlcə tibb məntəqəsinə baxdılar.

Sonra dövlətimizin başçısı və xanımı mərkəzdə sağlamlıq imkanları məhdud gənclər üçün yaradılmış şəraitlə, habelə idman zalı ilə tanış oldular.

Mərkəzlə tanışlıqdan sonra Azərbaycan Prezidenti və xanımı sağlamlıq imkanları məhdud gənclərlə görüşdülər.



# Naxçıvan Muxtar Respublikasının 2013-cü ilin yanvar-noyabr ayları üzrə sosial-iqtisadi inkişafı

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2013-cü ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasında 2 milyard 34 milyon 737 min 800 manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da 2012-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 8,6 faiz çoxdur. Ümumi Daxili Məhsulun sahə strukturunda ilk yeri sənaye sahəsi tutmaqdadır.

Hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2012-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 7,4 faiz artaraq 4719,9 manata (6015,7 ABŞ dollarına) çatmışdır.

* * *

2013-cü ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasında 794 milyon 484 min 800 manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2012-ci ilin müvafiq dövründəki göstəricini 6,1 faiz üstələmişdir.



* * *

Qeyd olunan dövrdə muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 954 milyon 470 min 400 manat həcmində investisiya yönəldilmişdir. 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə istifadə edilmiş investisiyanın həcmi 6,5 faiz artmışdır.

* * *

Bu ilin yanvar-noyabr ayları ərzində informasiya və rabitə xidmətlərinin həcmi 42 milyon 584 min 500 manat olmuşdur ki, bu da 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,3 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 36 milyon 478 min 100 manat olmaqla, bir il öncəki göstəricini 6,1 faiz üstələmişdir.

* * *

2013-cü ilin yanvar-noyabr aylarında muxtar respublikada 290 milyon 297 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2012-ci ilin müvafiq dövründəki göstəricini 6,7 faiz üstələmişdir. Cari ilin yanvar-noyabr aylarında muxtar respublikada 17,5 min ton ət (diri çəkidə), 75,1 min ton süd istehsal edilmiş, 2012-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə ət istehsalı 3,7 faiz, süd istehsalı 0,2 faiz artmışdır.



* * *

Cari ilin yanvar-noyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,7 faiz artaraq 1 milyard 537 milyon 303 min 100 manat, onun hər bir nəfərə düşən həcmi isə 2,6 faiz yüksələrək 3566,2 manat təşkil etmişdir.

* * *

Aparılan məqsədyönlü iqtisadi siyasət muxtar respublikada əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmışdır. 2013-cü ilin yanvar-noyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 376,2 manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artmışdır.

* * *

1 dekabr 2013-cü il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 24021-ə çatmışdır ki, bunun da 20770-i və ya 86,5 faizi aktiv hesablardır.



2013-cü ilin yanvar-noyabr ayları ərzində açılmış 7750 bank hesabının 7696-sı və ya 99,3 faizi aktiv hesablardır.

* * *

2013-cü ilin yanvar-noyabr aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən xarici dövlətlərlə aparılan ticarət əməliyyatları nəticəsində 435 milyon 115 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. İxracın həcmi son bir il ərzində 4,6 faiz artaraq 328 milyon 480 min ABŞ dollarından çox olmuş və xarici ticarət üzrə 221 milyon 846 min ABŞ dollarından artıq həcmdə müsbət saldo yaranmışdır.

* * *

Cari ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 41 milyon 730 min 500 manat həcmində kreditlər verilmişdir.

* * *

1 dekabr 2013-cü il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 8475 nəfər və ya 2 faiz artaraq 434920 nəfər olmuşdur.



# Biznes Mərkəzində sahibkarlarla görüş keçirilib



***Dekabrın 24-də Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə yaradılması iqtisadi cəhətdən səmərəli hesab edilən layihələrin təqdimatı məqsədilə Naxçıvan Biznes Mərkəzində sahibkarlarla görüş keçirilib.***

Tədbiri iqtisadi inkişaf naziri Famil Seyidov açaraq muxtar respublikada sahibkarlığın inkişafı üçün yaradılan şəraitdən danışıb. Qeyd olunub ki, iqtisadi tərəqqinin əsas təməl prinsiplərindən olan sahibkarlıq mühitinin genişləndirilməsi, sahibkarlara hərtərəfli dövlət qayğısının göstərilməsi, fəaliyyət sahəsindən asılı olmayaraq, onlara müxtəlif güzəştli kreditlərin verilməsi həyata keçirilən mühüm tədbirlərdəndir. Bunun nəticəsidir ki, muxtar respublikamızda sahibkarlar dövlət dəstəyindən lazımınca yararlanır, onların sayı ildən-ilə artır.

Vurğulanıb ki, hazırda qarşıda duran əsas vəzifələrdən biri muxtar respublikanın daxili tələbatını ödəyən bütün növ məhsulların istehsalına nail olunması və ixracyönümlü məhsulların həcminin artırılmasıdır. Bu sahədə əsas vəzifənin sahibkarların üzərinə düşdüyünü qeyd edən nazir onlara hərtərəfli dəstəyin bundan sonra da göstəriləcəyini bildirib.

Sahibkarların qarşılaşdıqları problemlər haqqında iş adamlarını dinləməyə hazır olduqlarını, əsassız yoxlamaların qarşısının alınmasında sahibkarların maarifləndirilməsinin böyük önəmə malik olduğunu deyən Famil Seyidov qeyd edib ki, gələn ildən başlayaraq istehlak bazarına nəzarət tədbirləri daha da gücləndiriləcək. Xüsusilə də muxtar respublikaya məhsul idxal edən sahibkarların bəzi məhsulları muxtar respublikada istehsal olunan eynitəyinatlı və keyfiyyətli məhsullardan qat-qat yüksək qiymətə bazara çıxarmasının qarşısı alınacaq. Bu tədbir daxili bazarda süni qiymət artımına şərait yaradan amillərin aradan qaldırılmasına müsbət təsir göstərəcək. Sahibkarlar Naxçıvan Biznes Mərkəzində tədbirlər keçirməyə maraqlı olmalıdırlar.

Sahibkarlığa Kömək Fondunun icraçı direktoru Abbasağa Babayev çıxışında bildirib ki, bu ilin ötən dövrü ərzində fondun investisiya xərcləri 7 milyon 419 min 700 manat təşkil edib. Ümumilikdə, fond tərəfindən 78 layihəyə güzəştli dövlət maliyyə dəstəyi göstərilib. Bəhs olunan dövrdə fond tərəfindən yaradılması başa çatdırılmış 52 layihə üzrə 739 yeni iş yeri açılıb, icrası davam edən 26 layihə üzrə isə 162 yeni iş yerinin açılması nəzərdə tutulub. Hazırda iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə, o cümlədən iri maldarlıq kompleksləri, ətin konservləşdirilməsi və tara istehsalı, kompleks arıçılıq, elektrik açarları istehsalı, meyvə-tərəvəz qurutma, pendir, xama istehsalı, mətbəə və nəşriyyat ləvazimatı istehsalı, köynək istehsalı, kompot istehsalı və digər sahələrin qurulması davam etdirilir. Cari ilin ötən dövrü ərzində muxtar respublikanın bütün rayonlarını əhatə etməklə torpaq mülkiyyətçiləri və sahibkarlarla çoxsaylı görüşlər keçirilib, torpaq mülkiyyətçilərinə və sahibkarlara 2013-cü ildə yaradılması prioritet hesab olunan kənd təsərrüfatı yönümlü 22 kiçikhəcmli layihənin təşviqi və təqdimatı olub. Bu tədbirlərin nəticəsi olaraq, ötən müddət ərzində müvəkkil kredit təşkilatları və sahibkarlar tərəfindən, ümumilikdə, 81 layihə fonda daxil olub, 1 dekabr 2013-cü il tarixə Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına kənd təsərrüfatı yönümlü kiçikhəcmli 67 layihənin maliyyələşdirilməsinə, ümumilikdə, 1 milyon 563 min 600 manat dövlət maliyyə dəstəyi göstərilib.

Sonra yaradılması iqtisadi cəhətdən səmərəli hesab edilən layihələrin təqdimatı olub. İqtisadi İnkişaf Nazirliyinin sektor müdiri Rauf Rəhimov layihələr haqqında geniş məlumat verərək sahibkarları maraqlandıran sualları cavablandırıb. O qeyd edib ki, yaradılması iqtisadi cəhətdən səmərəli hesab edilən sahələrin layihələri arasında dəftər, döşəmə üçün PVC örtük istehsalı sahəsi, meyvə və tərəvəzin dondurulması sahəsi, istismar müddəti başa çatmış avtomobil şinlərinin utilizasiyası sahəsi, plastik taraların yenidən emalı və bərk band istehsalı sahəsi də var. Bundan başqa, yunun emalı və xalça istehsalı, köynək, şalvar tikilişi, alçıpan örtüklər üçün lent istehsalı, elektrod istehsalı, şüşə lifli izolyasiya materialı istehsalı sahəsi və digər sahələr üzrə layihələr də sahibkarlara təqdim olunur.

Sonda mərkəzdə nümayiş olunan yerli istehsal məhsullarından və əl işlərindən ibarət sərgiyə baxış olub.

Səbuhi HÜSEYNOV

# Sağlamlıq imkanları məhdud vətəndaşlarımızı cəmiyyətin aktiv üzvünə çevirək!

## *Yeni dövlət proqramının ümumi məqsədi budur*

***“Siz gördüklərinizi mən hiss edirəm, amma mən hiss etdiklərimi siz görmürsünüz”. Bu, görmə qabiliyyəti məhdud olan bir insanla söhbət zamanı mənə dediyi və ömrüm boyu yaddaşımdan silinməyəcək bir cümlə idi. Bu cümlənin içində həm etiraz, həm özünütəsdiq var. Bir də uzun zaman düşündükdən sonra gəldiyim bir nəticə: düşünmək və ağıllı olmaq, oxumaq və savadlı olmaq fiziki imkanların məsələsi deyil. Bu, ağıl və ruh məsələsidir.***

Bir də onun dediyi bir cümlə yaddaşıma həkk olundu. O deyirdi ki, məni ən çox incidən bizə fərqli nəzərlərlə baxılmasıdır, cəmiyyətdən ayrı tutulmağımızdır. Bu mənada “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın əhəmiyyəti haqqında düşünərkən, ilk növbədə, dövlət proqramının o uşaqların cəmiyyətə inteqrasiyasına necə təsir edəcəyini öyrənməyə çalışdım. Proqramın həm də bütün cəmiyyətin inkişaf səviyyəsinə təsir göstərəcək bir sahə – təhsil sahəsi üzrə ixtisaslaşması xüsusi olaraq təqdir edilməlidir. Çünki, necə deyərlər, qüsurlu insan sağlamlıq imkanları məhdud olan insan deyil, qüsurlu insan savadsız insandır. Cəmiyyətə nöqsanlı təhsilin və cəhalətin vurduğu zərbəni heç nə vura bilməz. Elə məhz bu səbəbdəndir ki, dövlət proqramında da qeyd edildiyi kimi, Azərbaycan dövləti tərəfindən ölkəmizdə qabaqcıl təhsil sisteminin yaradılması, insan kapitalının inkişafına nail olunması başlıca vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir.

Muxtar respublikamızda da təhsilin səviyyəsinin müasir dünya standartları səviyyəsinə yüksəldilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ötən müddət ərzində ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu mənada cəmiyyətin hər bir üzvünün təhsil almaq hüququnun təmin edilməsi istiqamətində məqsədyönlü işlər reallaşdırılmışdır. Əqli və fiziki imkanlarının məhdudluğundan asılı olmayaraq, hər bir insanın cəmiyyətə inteqrasiyasının təmin olunması təkcə müəyyənləşdirilən vəzifə deyil, həm də müqəddəs bir vəzifədir. Əgər ölkəmizdə məhdud fiziki imkanlı insanların xüsusi təhsili haqqında mövcud olan qanunvericilik bazası onların, sadəcə, təhsil almasını nəzərdə tuturdusa, yeni qəbul edilən proqram bu kateqoriyadan olan uşaqların digər uşaqlarla birgə təhsilə cəlb edilməsini, onların sosial reabilitasiyasını və cəmiyyətə uyğunlaşmasını hədəfləyir. Bu hədəflər isə son illərdə dünyanın ən qabaqcıl ölkələrində bu istiqamətdə iş aparan sosial hərəkatların arzuladıqları hədəflərdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, hazırda Naxçıvanda 2142 sağlamlıq imkanları məhdud olan uşaq qeydiyyatdadır ki, onlardan 840 nəfəri ümumtəhsil məktəblərində təhsil alır. Təkcə 2013-cü ildə bu kateqoriyadan olan 76 uşaq ümumtəhsil məktəblərinin birinci siniflərinə qəbul edilmiş, bəhs olunan dövrdə 38 uşaq isə məktəbəqədər təhsil müəssisələrinə cəlb olunmuşdur.

Proqramın 5 əsas məqsədi sırasında inklüziv və məsafədən (distant) təhsilə keçidə zəmin hazırlanması, sağlamlıq imkanları məhdud uşaqların müasir informasiya texnologiyalarından istifadə imkanlarının artırılması, sağlamlıq imkanları məhdud uşaqların məktəb mühitinə uyğunlaşmasını təmin etmək üçün müvafiq pedaqoji kadrların hazırlanması kimi məqsədlər xüsusilə diqqəti cəlb edir.

Qeyd edək ki, ümumi təhsil bazasında inklüziv və məsafədən təhsil imkanlarının təmin olunması muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin gələcək fəaliyyət planına da əhəmiyyətli təsir göstərməlidir. Çünki təkcə fiziki imkanları məhdud insanlar üçün deyil, hər kəs üçün distant təhsil imkanlarının yaradılması dünyanın qabaqcıl ali təhsil müəssisələrinin fəaliyyətində artıq əhəmiyyətli yer tutur. Bu, öz ölkəmizin məhdud fiziki imkanlı vətəndaşlarına ali təhsilin verilməsi ilə yanaşı, xarici ölkələrdən olan vətəndaşların da ödənişli distant təhsilə cəlbinə imkan yarada bilər. Proses isə, öz növbəsində, özünümaliyyələşdirmə sisteminə keçməkdə olan ali təhsil ocaqlarının büdcə gəlirlərini artırar.

Yeni qəbul olunan dövlət proqramında hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar üçün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması, bu tip tədrisə cəlb edilmiş uşaqların məktəbli ləvazimatları ilə təmin olunması Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, eləcə də Rabitə və İnformasiya Texnologiyaları nazirliklərinin qarşısında qoyulan əsas vəzifələrdəndir.

Proqramın digər bir məqsədi – sağlamlıq imkanları məhdud uşaqların müasir informasiya texnologiyalarından istifadə imkanlarının artırılması istiqamətində də muxtar respublikamızda indiyə qədər bir sıra işlər həyata keçirilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən deyirlər ki, hazırda Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə və eşitmə qabiliyyəti məhdud olan şəxslər üçün xüsusi proqram təminatı əsasında audio və elektron kitabxana xidməti fəaliyyət göstərir. Bu xidmətdən muxtar respublikada yaşayan görmə qabiliyyəti məhdud şəxslər mərkəzdə qeydiyyatdan keçdikdən sonra sabit telefonlardan “258” nömrəsinə zəng etməklə mərkəzin kitabxanasında olan audiokitabları dinləyə bilirlər.

Qəbul edilən dövlət proqramının üstünlüklərindən biri də məhdud fiziki imkanlı uşaqların təkcə ümumtəhsil müəssisələrinə deyil, həm də məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinə cəlbinin nəzərdə tutulmasıdır. Qeyd edək ki, təkcə 2013-cü il ərzində, ümumilikdə, sağlamlıq imkanları məhdud 294 uşaq, o cümlədən 103 nəfər məktəbdənkənar müəssisələrin yaradıcılıq dərnəklərinə, 68 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin məşğələlərinə, 56 nəfər Şahmat Mərkəzinə, 42 nəfər musiqi məktəblərinə, 25 nəfər idmanın müxtəlif növləri üzrə qruplara cəlb edilmişlər. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların iştirakı ilə “Naxçıvan tarixi abidələr diyarıdır” rəsm müsabiqəsi, “Yurdumuzu tanıyırıq” bilik yarışı, eyni zamanda 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə silsilə tədbirlər keçirilmişdir. Yeni proqramın tədbirlər planına əsasən, bu kateqoriyadan olan uşaqların musiqi məktəblərinə, dərnəklərə, məşğələlərə və idman qruplarına cəlbi nəzərdə tutulur ki, bu da işin daha mütəşəkkil həyata keçirilməsinə şərait yaradacaqdır.

Proqrama uyğun olaraq, tədbirlər planında humanizm prinsiplərindən xəbər verən və cəmiyyət üçün ən vacib olan iki istiqamət də var. Bunlardan biri bu kateqoriyadan olan insanlara qarşı tolerant mühitin yaradılması məqsədilə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, digəri isə muxtar respublikada məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrin təmiri və tikintisi zamanı sağlamlıq imkanları məhdud şəxslərin hərəkəti üçün müvafiq şəraitin (əlil arabası üçün panduslar və xüsusi şərait) yaradılmasıdır.

Bəs yeni qəbul olunan dövlət proqramına bu kateqoriyadan olan uşaqların valideynlərinin münasibəti necədir? Onların proqramdan gözlədikləri nələrdir? Yaradılan şərait onları qane edirmi? Bu suallara aydınlıq gətirmək üçün bir neçə belə vətəndaşımızın fikirlərini öyrənməyə qərar verdik.

İlkin və Aynur Rzazadələr – onların görmə imkanları məhdud olsa da, bu gün onlar da həmyaşıdları kimi orta məktəbdə təhsil alırlar. Uşaqların valideyni Naxçıvan şəhər sakini Natəvan Hüseynova deyir ki, hazırda hər iki övladı Naxçıvan şəhərindəki 15 nömrəli tam orta məktəbdə təhsil alır. Həmçinin uşaqların əlavə bacarıqlarının inkişaf etdirilməsi üçün maraqlarına uyğun musiqi məktəbində təhsil almaları təmin edilib. Yeni dövlət proqramının qəbulu ilə bağlı da Natəvan xanımın fikirlərini öyrəndik:

– Mən bir ana kimi göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdaram. Məhz onun göstərdiyi diqqətin nəticəsidir ki, daim bizim problemlərimizlə maraqlanırlar. Uşaqlar məktəbə gedən gündən onların məktəbli geyimləri ilə təmin edilməsi üçün hər cür köməklik göstərilib. Məktəbdə də onlar bütün həmyaşıdları ilə birlikdə təhsil alırlar. Bəzən maraqlanıram ki, onlara qarşı münasibət necədir? Psixoloqlar, müəllimlər onlara maksimum dərəcədə qayğı göstərirlər. Yeni proqramın qəbulu da göstərilən qayğını və diqqəti daha da artıracaq. Buna görə dövlətimizə minnətdaram.

Şərur rayon Xanlıqlar kənd sakini Aybəniz Mütəllibovaya fiziki imkanları məhdud olan övladı Minayə Muradlının təhsili və bacarıqlarının inkişafı üçün görülən işlərlə bağlı sualımızı ünvanlayarkən maraqlı bir məqam ortaya çıxır. Minayə xanım deyir ki, onun özünün də sağlamlıq imkanları məhduddur. Lakin Naxçıvan Dövlət Universitetində təhsil alıb, musiqi məktəbini bitirib və hazırda Xanlıqlar kənd tam orta məktəbində sinif müəllimi kimi fəaliyyət göstərir. “Qızımın təhsilindən çox razıyam. O təkcə məktəbdə oxumur, həm də musiqi məktəbində piano dərslərinə gedir. Bilirsiniz, əvvəllər – mən təhsil alan vaxtlarla indiki şərait tamam fərqlidir. İndi nəinki təhsil alması üçün övladıma şərait yaradılır, hətta onun dərsə gedib-gəlməsi təmin olunur. Yeni dövlət proqramının qəbulu bizi çox sevindirdi. Bu, o deməkdir ki, cəmiyyət üzvləri kimi, dövlətimiz bizi heç zaman unutmur. Biz də cəmiyyətimizin inkişafına əlimizdən gələn töhfələri verməyə çalışırıq”.

Fariz Mirzəmmədov Babək qəsəbəsində yaşayır. Onun övladı İsmayıl Mirzəmmədov da digər həmyaşıdları kimi orta təhsil alır. Dövlət tərəfindən övladına göstərilən qayğı, diqqətə görə minnətdarlıq edir. “Proqramın icrasından gözləntiləriniz nədir? Övladınızın təhsili üçün daha nə lazımdır?” – deyə soruşuruq.

– Göstərilən diqqətə görə dövlətimizə minnətdarlığımı bildirirəm. Gələn il övladım 9-cu sinfi bitirəcək. İstərdim ki, onun peşə təhsili alması üçün şərait yaradılsın. Ümid edirəm ki, dövlətimiz bizim bu istəyimizin reallaşmasına yardımçı olacaq”.

***Qeyd edək ki, ümumilikdə, 25 istiqamətdə müxtəlif tədbirlərin həyata keçirilməsini nəzərdə tutan dövlət proqramı dövlət qurumlarının, müxtəlif nazirliklərin və komitələrin üzərinə böyük vəzifələr qoyur. Amma sağlamlıq imkanları məhdud olan insanlarımızın cəmiyyətə inteqrasiyası üçün ən böyük vəzifə bizim hər birimizin – özünü cəmiyyətin üzvü hesab edənlərin üzərinə düşür. Gəlin onlara xüsusi biri kimi deyil, hamıdan biri kimi yanaşdığımıza əvvəlcə özümüzü inandıraq.***

**Elnur KƏLBİZADƏ**

# Cənubi Koreya səfirliyinin nümayəndəsi universitetdə

Cənubi Koreya Respublikasının Azərbaycandakı səfirliyinin müşaviri Cha Chang-soon Naxçıvan Dövlət Universitetində olmuşdur. Diplomatik nümayəndə universitetin strukturu, Beynəlxalq münasibətlər və xarici dillər fakültəsindəki Koreya Mədəniyyət və Dil Tədrisi mərkəzlərində Koreya dilinin tədrisi ilə tanış olmuşdur. Bildirilmişdir ki, mərkəzdə Koreyanın tarixi, milli mədəniyyəti, ali təhsil sistemi ilə bağlı materiallar toplanmışdır. Hazırlıq kurslarında Koreya dilini universitetin beynəlxalq münasibətlərin tarixi və nəzəriyyəsi ixtisaslaşması üzrə magistrantı, Cənubi Koreya vətəndaşı Canq Second tədris edir.

Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov universitetin inkişaf yolu, maddi-texniki bazası və beynəlxalq əlaqələri haqqında danışmışdır. Qeyd olunmuşdur ki, bu ali məktəb dünyanın 80-dən çox tanınmış universiteti ilə, o cümlədən Cənubi Koreyanın Kimçonq və Busan Kyumqsunq universitetləri ilə əməkdaşlığa malikdir. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə (KOİCA) universitet birgə “Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsini həyata keçirir. Koreyanın ali təhsil ocaqları ilə əlaqələrin inkişafı Asiya ilə əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb edir. Tələbə mobilliyinə əsasən, universitetlər arasında tələbə mübadiləsi də uğurla həyata keçirilir.

Cha Chang-soon ölkələrarası münasibətlərin inkişafından, elm, təhsil sahəsində tərəfdaşlığın əhəmiyyətindən bəhs etmişdir. Bildirilmişdir ki, səfirlik də əlaqələrin davamlı inkişafı üçün öz köməkliyini əsirgəməyəcək.

Tədbirdə “Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsinin qarşısında duran növbəti vəzifələri, gələcək əməkdaşlıq məsələləri müzakirə olunmuş, işgüzar səfərlər, tələbə mübadiləsi və digər müştərək tədbirlərin təşkili ilə bağlı təkliflər irəli sürülmüşdür.

Cha Chang-soon universitetdə təhsil alan koreyalı tələbələrlə görüşmüşdür.

*Naxçıvan Muxtar Respublikası ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsinin 15 illiyinə həsr olunmuş hüquq olimpiadasının II turu keçirilib.*

# Hüquq olimpiadasının ikinci turu keçirilib



Naxçıvan Dövlət Universitetinin müvafiq auditoriyalarında keçirilən növbəti turda 36 tələbə iştirak edib. Bu turda da tələbələr 1 saat ərzində Azərbaycan Respublikası Konstitusiyası və Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən hazırlanmış 4 variantda (A, B, C, D) 60 test tapşırığı üzrə biliklərini yoxlayıblar. Tələbələr arasında keçirilmiş hüquq olimpiadasının II turunun cavabları olimpiadanın münsiflər heyəti tərəfindən yoxlanılacaq. Bu turda ali və orta ixtisas təhsili müəssisələri üzrə ən yüksək bal toplamış ilk 3 tələbə qalib elan olunacaq.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında hüquq olimpiadasının I turu 23 noyabr 2013-cü il tarixdə keçirilib və bu turda 227 tələbə iştirak edib.

**Səbuhi HƏSƏNOV**

# Təlim kursu uğurla yekunlaşıb

Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyasının birgə həyata keçirdiyi “Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi” layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetində keçirilən növbəti təlim kursu başa çatıb. UNİCHECK Məhdud Məsuliyyətli Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən və “Su ehtiyatlarının inteqrasiyalı idarə olunması” mövzusuna həsr olunan təlim kursunda kəhrizlərin yararlı hala salınması və mühafizəsi, qlobal iqlim dəyişmələri və su ehtiyatlarının inteqrasiyalı idarə olunması ilə, həmçinin su sistemlərinin idarə olunmasında icma təşəbbüsləri, su və gender bərabərliyi, ekoloji axım, su obyektlərinin çirklənməsinin qarşısının alınması və digər məsələlərlə bağlı mühazirələr oxunub, slaydlar təqdim olunub.

Yekun tədbirdə universitetin rektoru, professor Saleh Məhərrəmov çıxış edərək növbəti təlim kursunun uğurla başa çatması münasibətilə iştirakçıları təbrik edib. Qeyd olunub ki, regionun bütün dövlət strukturlarının əməkdaşlarını əhatə edən bu təlim kurslarında universitetin müxtəlif ixtisaslar üzrə müəllim və tələbələrinin də iştirak etməsi təqdirolunası haldır və bu, onların peşəkar mütəxəssis kimi formalaşmalarında mühüm rol oynayır.

Ekspertlər adından Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Əkbər Əsgərov təlimin keçirilməsi üçün yaradılan şəraitə görə minnətdarlıq edib.

Sonda kurs iştirakçılarına sertifikatlar təqdim olunub.

**Mehriban SULTAN**

*Muxtar respublikanın sosial-iqtisadi inkişafı bu gün özünün elə bir mərhələsinə qədəm qoyub ki, təkcə ölkəmizin regionları ilə deyil, qonşu xarici ölkələrlə də əlaqələr, gediş-gəliş artmışdır. Belə bir dövrdə yolların, avtovağzalların müasir tələblərə cavab verməsinin əhəmiyyəti bir qədər də çoxalmışdır. Böyük dövlət qayğısı hesabına müasirliyə qovuşan qədim Naxçıvanımız barədə buraya gələnlərin ilkin təəssüratları da giriş-çıxış qapılarından formalaşır. Heç kimə sirr deyil ki, Naxçıvan Beynəlxalq Hava Limanına ilk dəfə qədəm qoyan insan blokada şəraitində yaşayan bir diyarın belə gözəl limanı olduğuna təəccübünü gizlədə, eləcə də limandan şəhərimizə gələn yol boyu yaradılan gözəlliklərin əfsunundan ayrıla bilmir. İndi bu xoş sözləri muxtar respublikamızın avtovağzal binaları üçün də söyləmək olar. Məlumdur ki, ötən əsrin 90-cı illərinin başlanğıcındakı dağıdıcılıq prosesi nəqliyyat sektoruna da böyük zərbə vurmuşdu. Həmin dövrdə işlək vəziyyətdə olan avtovağzallar dağıdılmış, nəqliyyat vasitələri sıradan çıxarılmışdı. Nəticədə isə əhalinin rahatlığı pozulmuş, nəqliyyat xidmətindən istifadə edən insanlar çətinliklərlə üzləşmişdilər.*

# Əhaliyə nümunəvi xidmətin ünvanları: avtovağzallar



Artıq o dövr arxada qalmışdır. Bu gün Azərbaycan sürətlə inkişaf edir. Ölkəmizdəki inkişafın bəhrəsi olaraq insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, onlara göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi, sosial qayğıya ehtiyacı olan insanlar üçün tədbirlər həyata keçirilir. Son illərdə muxtar respublikada sərnişindaşıma xidmətinin səviyyəsini yaxşılaşdırmaq üçün həyata keçirilən tədbirlərin miqyası ölçüyəgəlməzdir. Muxtar respublikamızda aparılan genişmiqyaslı quruculuq tədbirləri avtovağzalları da əhatə etmişdir. 2009-cu ilin iyun ayında Şərur şəhərində yeni avtovağzal binasının istifadəyə verilməsi belə tədbirlərdən ilki olmuşdur. 1248 kvadratmetr sahəni əhatə edən avtovağzalın binası rayonun ən müasir binalarından biri kimi gün ərzində 2000 sərnişinə xidmət edir. Qeyd edim ki, avtovağzal 120-yə yaxın avtobusu qəbul edib yola salmaq imkanına malikdir. Rayonda 34 ədəd müxtəlifmarkalı avtobusla rayondaxili sərnişindaşıma xidməti göstərilir. Şərur-Sədərək, Şərur-Naxçıvan marşrutu üzrə gün ərzində 6 avtobus işləyir.

Həmin il yenidənqurma işlərindən sonra istifadəyə verilən obyektlərdən biri də Naxçıvan şəhərindəki Avtovağzal Kompleksi olmuşdur. Həmin avtovağzal ki, bir vaxtlar qaynarlığı ilə şəhərimizin seçilən ünvanlarından biri idi. Açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: *“Avtovağzalın yenidən qurularaq istifadəyə verilməsi, sərnişin daşınmasında xidmətin bərpa olunması insanlar üçün yeni iş yerlərinin açılması deməkdir. Bütün bunlar Avtovağzal Kompleksinin mühüm əhəmiyyətə malik olduğunu bir daha sübut edir. Avtovağzal Kompleksi yeni iş yerləri olmaqla bərabər, həm sərnişindaşımasının səviyyəsinin yüksəldilməsi, ölkəmizin imici, həm də sosial-mədəni infrastrukturda əhəmiyyətli yer tutan bir sahədir. Ona görə də kompleksin yenidən qurulması qarşıya məqsəd qoyuldu və bu məqsədə nail olundu”.*

Avtovağzal binasında yaradılan şərait, sözün həqiqi mənasında, insanda xoş təəssüratlar yaradır. Kompleksə beynəlxalq və yerli reysləri həyata keçirmək üçün bölmələr, avtobus dayanacaqları, kafe, ticarət mərkəzi və mehmanxana daxildir. Binada bilet satışı kassaları, məlumat otağı, saxlama kamerası, valyutadəyişmə məntəqəsi, 200 yerlik gözləmə zalı yerləşir. Avtovağzaldan hər gün Naxçıvan-Bakı istiqamətinə 4, Naxçıvan-Türkiyə istiqamətinə 6 avtobus işləyir. Naxçıvan-İran İslam Respublikası istiqamətinə isə yeni xətt açılmışdır. Həmçinin Naxçıvan şəhərindən rayon mərkəzlərinə, hətta ən ucqar dağ kəndlərinə belə, avtobuslar yola salınır.

Avtovağzal Kompleksində ticarət mərkəzi də fəaliyyət göstərir. Mağazalarda sənaye və ərzaq məhsullarının, elektrik cihazlarının, geyim dəstlərinin, hədiyyələrin satışı həyata keçirilir, sərnişinlərə foto xidməti göstərilir. Ticarət mərkəzində diqqətçəkən mağazalardan biri baytarlıq mağazasıdır. Bu mağazanın açılmasında məqsəd ondan ibarət olub ki, avtovağzala regionun müxtəlif yaşayış məntəqələrindən gələnlər çox olur. Ona görə də burada heyvandarlıqla və arıçılıqla məşğul olan insanlar üçün geyim dəstləri, müxtəlif avadanlıqlar satılır. Həmçinin mağazada arıların, mal-qaranın müxtəlif xəstəliklərinin müalicəsi üçün lazım olan dərman preparatları da vardır. Avtovağzal Kompleksinə daxil olan beşmərtəbəli mehmanxana binasında yaradılan şərait də yüksək səviyyəsi ilə seçilir.

2009-cu ildə Culfa rayon sakinləri də yeni avtovağzalın istifadəyə verilməsinin sevincini yaşadılar. Məlumat üçün deyək ki, əvvəllər rayonda avtovağzal fəaliyyət göstərmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində bina dağıdılmış, mövcud olan hissələrindən müxtəlif məqsədlərlə istifadə olunmuşdur. Rayon əhalisi bundan əziyyət çəkmiş, Naxçıvan şəhərinə, yaxud rayonun kəndlərinə gedib-gəlmək üçün pərakəndə şəkildə fəaliyyət göstərən marşrutlardan, müxtəlif yerlərdən istifadə etmişdir. Yeni avtovağzalın istifadəyə verilməsi bütün bu çətinlikləri aradan qaldırmışdır. Artıq əhali müasir üslubda tikilən və hər gün 400-500 sərnişinə xidmət edən avtovağzaldan istifadə edir. Burada əhaliyə nümunəvi nəqliyyat xidməti göstərmək üçün hər cür şərait yaradılmışdır.

Həmin il Şahbuz şəhərində də yeni avtovağzal istifadəyə verilmişdir. Müasir üslubda tikilən bina iki mərtəbədən ibarətdir. Binanın birinci mərtəbəsində 55 yerlik gözləmə zalı, kassa, ikinci mərtəbəsində isə 5 otaqdan ibarət inzibati hissə yerləşir. Binanın həyətində isə 34 platforması olan avtobus dayanacağı var. Avtovağzal 31 marşrut üzrə 500-ə yaxın sakinə xidmət göstərir.

2010-cu ildə Ordubad rayonunda müasir tələblər səviyyəsində inşa olunan ikimərtəbəli avtovağzal binasının istifadəyə verilməsi də təqdirolunasıdır.

***Göründüyü kimi, muxtar respublikada hər sahənin inkişafı diqqət mərkəzində saxlanılır. Qısa müddətdə muxtar respublikanın müxtəlif ünvanlarında yeni avtovağzal binalarının istifadəyə verilməsi heç də asan məsələ deyil. Bunların yaradılmasına külli miqdarda vəsait sərf olunmuşdur. Məqsəd isə aydındır: insanlarımız rahat olsun, əziyyət çəkmədən nümunəvi nəqliyyat xidmətindən istifadə etsinlər. Bu da, öz növbəsində, muxtar respublika əhalisinin qarşısına mühüm vəzifələr qoyur. Həm sürücülər və nəqliyyat xidməti işçiləri, həm də sərnişinlər onlar üçün yaradılmış şəraitdən düzgün istifadə etməlidirlər.***

**Sara ƏZİMOVA**

# SİRAB Avropa bazarına çıxır

**“Sirab” mineral suyunun istehsalına ilk dəfə 1950-ci ildə primitiv üsulla kiçik bir sexdə başlanılmışdır. 1968-ci ildə tikilib istifadəyə verilən və illik istehsal gücü 6000 butulka olan Sirab Mineral Sudoldurma Zavodu bu qiymətli sərvətin istehsalına geniş imkanlar açmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə zavodun tam gücü ilə işləməsi təmin edilmişdir. 1984-cü ildə zavodda yeni texnoloji avadanlıqlar tətbiq olunmaqla əlavə iki xətt quraşdırılmış, istehsal gücü ildə 4,5 milyon butulkaya çatdırılmışdır.**




Ötən əsrin 90-cı illərinin əvvəllərində zavod fəaliyyətini, demək olar ki, dayandırmışdır. 1993-cü ildən ölkəmizin ayrı-ayrı bölgələri kimi, muxtar respublikamızda da bazar iqtisadiyyatının tələblərinə uyğun sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Göstərilən bu dövlət qayğısından bəhrələnməklə Sirab Mineral Sudoldurma Zavodunun bazasında yaradılan Babək “Sirab” Açıq Səhmdar Cəmiyyəti əsaslı təmir və yenidənqurma işlərindən sonra 2005-ci ilin noyabr ayında istifadəyə verilmişdir. Beş hektar ərazini əhatə edən müəssisədə 2 mərtəbəli inzibati bina, işçilərə iaşə xidməti göstərilməsi üçün yeməkxana, istehsal və digər yardımçı sexlər, anbar, karbon qazı və kompressor stansiyası yerləşir.

Müasir texnoloji avadanlıqlarla təmin olunmuş bu müəssisədə keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılmışdır. Məhz bunun nəticəsidir ki, zavod bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal edərək rəqabətqabiliyyətli müəssisəyə çevrilmişdir. Amma təbii sərvətimizdən daha səmərəli istifadə olunmaqla müəssisənin fəaliyyətinin genişləndirilməsi, istehsal həcminin artırılması və yeni istehsal sahəsinin – qazsız su istehsalı sahəsinin yaradılması üçün Sahibkarlığa Kömək Fondundan 2011-ci ilin fevral ayında 700 min manat, aprel ayında isə 350 min manat güzəştli kredit ayrılmışdır. Bundan sonra bir sıra tədbirlər həyata keçirilmiş, müəssisədə 625 kvadratmetr sahəsi olan binada əsaslı təmir və yenidənqurma işləri aparılmış, Türkiyə Respublikasının “Ersey Makina” Şirkətindən istehsal gücü saatda 11 min ədəd 0,5, 9000 ədəd 1, 8000 ədəd 1,5 litrlik butulkalarda, 5 və 19 litrlik taralarda qazsız su olan müasir texnoloji avadanlıqlar alınıb gətirilərək quraşdırılmışdır. Eyni zamanda mineral suyun mənbəyindən zavodadək 2,7 kilometr məsafədə və zavod daxilində olan paslanmayan borular yenisi ilə əvəz edilmişdir. Müəssisədə müasir texnoloji avadanlıqlarla təmin olunmuş xüsusi bakterioloji laboratoriya istifadəyə verilmişdir. Yeni istehsal sexində lazerlə tarixvurma avadanlığı quraşdırılmışdır ki, bu da ölkəmizdə 3 böyük şirkətdə mövcuddur. Ümumilikdə, yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınmasına 1 milyon 350 min manat vəsait sərf olunmuşdur ki, bunun da 300 min manatı daxili imkanlar hesabına ödənilmişdir.

Müəssisədə istehsal prosesi suyun hazırlanması və qablaşdırılması mərhələlərindən keçməklə aparılır. Mineral su zavoda “Kalbayağıl” deyilən yerdəki bulaqlardan yerin altı ilə paslanmayan borularla çəkilmişdir. Su mənbəyinin təhlükəsizliyini təmin etmək məqsədilə bulağın ətrafı hasara alınmış, burada bina tikilmişdir. Zavoda gələn su əvvəlcə saatda 15 ton susüzmə gücünə malik qum filtrindən keçirilib çənlərə yığılır və suyun səviyyəsi rəqəmli şüşə borularla müəyyənləşdirilir. Hər biri 20 ton həcmində olan çənlərdə su 2 gün saxlanılır. Sonra yenidən filtrdən keçirilərək mineral və qazsız su istehsalı sexlərinə verilir. Suyu boşaldıqdan sonra çənlər yuyulur, dezinfeksiya edilir. Burada 200 tonluq qapalı hovuz da tikilmişdir ki, çənlərə gələn suyun artıq hissəsi buraya doldurulur. Mineral su soyuducu qurğularda 4-8 dərəcəyədək soyudularaq 1 mikronluq filtrdən, qazsız su isə “Tərs osmos” üsulu ilə süzülərək təmiz saf su həddinə salınmaqla ultrabənövşəyi şüadan keçirilib ozonlaşdırıldıqdan sonra istehsal sahələrinə ötürülür.

İstehsal prosesi tam avtomatlaşdırılmışdır. Müəssisənin istehsal sahələrində müxtəlifhəcmli plastik və şüşə butulkalarda olmaqla, 10 çeşiddə məhsul istehsal olunur. Butulkalar yuyulur, doldurularaq etiket vurulur, tarixvurma avadanlığından keçməklə paketlənir. Bu proseslərin heç birində əl əməyindən istifadə olunmur. Hazır məhsul anbara təhvil verilir, oradan da müəssisənin balansında olan avtomobillərlə sifarişə uyğun ayrı-ayrı ticarət obyektlərinə yola salınır. 2011-ci ilin fevral ayında “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının Plastmas Kapsul və Qapaq İstehsalı Müəssisəsinin fəaliyyətə başlaması bu müəssisənin də plastmas taralara olan tələbatının yerli istehsal hesabına ödənilməsinə, xammalın əlavə daşınma xərci çəkmədən daha münasib qiymətə alınmasına əlverişli şərait yaratmışdır.

Müəssisədə məhsulun keyfiyyətinə laborator nəzarət təmin olunmuşdur ki, burada da suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bir sözlə, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyəti yenidən bərpa edilən müəssisədə istehsal prosesi avtomatlaşdırılaraq standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunmuşdur. Bütün bunların müqabilində “Sirab” mineral suyu 2005-ci ilin may ayında İsveçrənin Cenevrə şəhərində keçirilən beynəlxalq forumun “İş təcrübəsində yüksək keyfiyyətlərə görə” adlı qızıl medalına, 2009-cu ilin oktyabr ayında Ukrayna Respublikasında keçirilən XII beynəlxalq sərgidə qızıl medala, 2010-cu ilin fevral ayında Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilən XVII beynəlxalq sərgidə gümüş medala, 2011-ci ildə yenə Moskva şəhərində və Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən beynəlxalq sərgilərdə qızıl medala layiq görülmüşdür. Həmçinin bu əvəzsiz təbii sərvətimizin Avropa ölkələrində və digər xarici ölkələrdə satışını təmin etmək üçün möhkəm baza yaradılmışdır. Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001-2000 və İSO 9001-2008 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır.

Məhsulun keyfiyyətinin yüksək olması müəssisəni alıcı problemi ilə üzləşdirmir. Mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərən kollektiv cari ilin 11 ayında 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,33, 0,5 litrlik şüşə butulkalarda qazlı, 5 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, 9 milyon 670 min 122 ədəd butulka mineral su istehsal etmişdir ki, bunun da 605 min 873 ədədi sifarişə uyğun olaraq muxtar respublika ərazisində, 7 milyon 977 min 71 ədədi Bakı şəhərində və respublikamızın müxtəlif bölgələrində fəaliyyət göstərən ayrı-ayrı ticarət obyektlərinə yola salınmış, 1 milyon 87 min 178 ədədi isə Rusiya Federasiyasına, Türkiyə, Gürcüstan və Litva respublikalarına göndərilmişdir. Nəticədə, ölkə daxilində 1 milyon 550 min 70 manatlıq, xarici ölkələrdə isə 413 min 934 manat məbləğində mineral suyun satışı təmin olunmuşdur. Gələcəkdə digər xarici ölkələrdə də “Sirab” suyunun satışa çıxarılması nəzərdə tutulur.

**Kərəm HƏSƏNOV**



Foto: Əsədulla Səfərov

# Muxtar respublikamızda qış turizmi üçün yaxşı imkanlar vardır

***Mənalı istirahətə fürsət tapanda, şübhəsiz, hər fəsildə bunun öz gözəlliyi vardır. Adamların bir çoxu ilin məzuniyyət dövründə istirahətə yollansa da, qışda edilən səyahətlər öz yaddaqalanlığı ilə təəssüratlarda yaxşı xatırlanır. İş-gücü çox olub, yayda uzaq səfərlərə macal tapa bilməyənlər qışda yaşadığı doğma diyarında – evin lap içində yaradılmış gözəl istirahət-rekreasiya mərkəzlərinin xidmətlərindən istifadə edə bilirlər. İşdir, şaxtalı havanın bu nəfəs kəsən vaxtında yolunuzu Ağbulaq İstirahət Kompleksinə salsanız, qalın qarın, çən-dumanın da adamı adi iş mühitindən uzaqlaşdırıb yorğunluğunu çıxaran əla bir fürsət olduğuna inanarsınız.***

Çox əvvəl deyil, ötən yay tanışlıq məqsədilə Ağbulağa gedəndə təbiətin dilbər guşələrindən biri olan Şahbuzda yolüstü qaynayan həyatı, görülən işləri görüb seyrə doymuşduq. Dağlarla həmahəng kimi ona sarmaşan hamar yollar, yol üstəki buz bulaqlar, göz işlədikcə uzanan yaşıl xalı çəmənliklər və uzaqdan aydın görünən insan əli möcüzələri adamın şair damarını titrədib ustad Məmməd Arazdan zümzümə etdirirdi. Ancaq bu dəfə yolumuzu Şahbuza salarkən kənarları buz bağlamış asfaltla şütüyən maşının pəncərəsindən baxanda hər şey sanki qış yuxusuna xatırladırdı. Ağbulağa yolumuz dekabrın 19-da düşmüşdü. Xalq təqviminə görə, hələ payızdan günlər qalsa da, üşüməkdən səbri tükənmiş təbiət bircə gündə öz qar örpəyinə bürünərək səssizliyə qərq olmuşdu. Gəncliyində qaynayıb coşmuş, amma artıq səksənində uzun qış gecələrini fürsət bilib yorğun yuxuya gedən ağsaçlı qocanın mürgüsü kimi düşündürücü idi bu səssizlik. Plovtəpənin gündüşən yamacı boyu arabir gözə dəyən ayaq ləpirləri bu sükut mənzərəsini tamamlasa da, Salvartıya doğru uzanan yol boyu qarşımıza çıxan, bəzən də bizi ötüb keçən lüks avtomobillər dağlardakı gur həyatdan xəbər verirdi. Xülasə, Ağbulaq kəndinə doğru irəliləyib təyinat yerinə çatana qədər bu hekayə bir qış nağılından da qısa oldu ki, bir də ətrafa baxıb özümüzü geniş, yaraşıqlı bir məkanda – Ağbulaq İstirahət Kompleksində gördük.

Maraqlıdır ki, hələ təqribən on il bundan əvvəl Naxçıvanın turizm perspektivləri haqqında danışarkən bəzilərimiz yalnız təbii və tarixi-mədəni ehtiyatlarımızı sadalamaqla kifayətlənir, görüləcək iş kimi dərhal reklam haqqında fikirlər söyləyirdik. Əlbəttə, reklam bazar iqtisadiyyatına xas olan mühüm marketinq tədbirlərindən biridir və o, istehsal olunmuş məhsul və xidmətlərin onu almaq istəyənlərə əvvəlcədən tanıdılmasıdır. Diqqət etsək, burada məhz "istehsal olunmuş" kəlməsi təsadüfi olaraq işlənməmişdir. Amma bir anlığa həmin on il öncəsinə qayıtsaq, o dövrdə bizim turizm haqqındakı söhbətlərimizin mövzusunda tez-tez adıçəkilən Batabat, müqəddəs Əshabi-Kəhf ziyarətgahı, Möminə xatın türbəsi, Badamlı, Darıdağ kimi təbii, tarixi-mədəni və mineral ehtiyatlarımızın hələ turizm məhsulu olmadığı, bunların yalnız turizm məqsədilə istifadə oluna biləcək ehtiyatlar olduğunu görə bilərdik. İndi məlum olur ki, xüsusən turizmdə heç bir iş görmədən, kadrlar hazırlamadan, zəruri xidmət obyektləri yaratmadan, sosial infrastruktura heç bir yenilik əlavə etmədən dərhal reklam haqqında danışmaq, öz adını belə, ingiliscə düzgün təqdim edə bilməyən fəlsəfə doktorunun xaricdəki elmi konfrans xəyalları kimi bir şeydir. Odur ki, istənilən sahədə olduğu kimi, turizmdə də ən yaxşı reklamın "olmayan şeyə bir don geyindirmək" fəlsəfəsi deyil, görülən əsl iş, çəkilən zəhmətin bəhrəsi və peşəkarlıqla təşkil olunan nümunəvi xidmətin özü olduğunu deyə bilərik. Bütün bunları isə ona görə vurğuladıq ki, səyahətsevərlər kimi turizm öyrənənlərimiz də xəbərdar olsunlar ki, Ağbulaq kimi füsunkar bir guşədə yaradılmış müasir istirahət kompleksi heç də dənizdəki yaşıl ada deyil, abadlıq və quruculuq ab-havasına bürünmüş bir regionun ucqar bir kəndində yaradılmış sağlamlıq-rekreasiya müəssisəsidir və bura artıq yüksəksəviyyəli xidmətləri, sərfəli qiymətləri ilə istirahət etmək istəyənlərin üzünə açıqdır.

Ağbulaq İstirahət Kompleksi Şahbuz şəhərindən təqribən 20 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşir. Bu ilin yayında istifadəyə verilən kompleksdə turistlərin istirahəti və mənalı vaxt keçirmələri üçün hər cür şərait vardır. İstirahət kompleksinin yerləşdiyi yer öz relyefinə və təbii iqlim xüsusiyyətlərinə görə ilin bütün fəsillərində buraya müxtəlifməzmunlu istirahət turları təşkil etməyə imkan verir. Naxçıvan şəhərindən bu kompleksə qədər yolun tam asfaltlanması Ağbulağa səyahət edənlərin cəmisi bir saat vaxtını aparır. Və bir saatın özü də tamamilə ətraf gözəlliklərin seyri ilə dolu bir əyləncədir.

İstifadəyə verildiyi gündən istirahət kompleksinin xidmətlərindən müxtəlif kateqoriyadan olan çoxlu sayda turist istifadə etmişdir. Buraya naxçıvanlı tələbə-gənclərdən tutmuş İsveçrənin ölkəmizdəki səfirinədək müxtəlif qonaqlar səyahət etmiş, ərazinin unikal təbii-rekreasiya potensialı ilə tanış olmuşlar. Kompleksdə xidmətin təşkilində yerli imkanlara üstünlük verilir. Gözəl təbiəti, təmiz havası və suyu olan bu məkanda təndir lavaşı ilə kəndin bal-qaymağının ayrı ləzzəti var. Burada öyrəndik ki, istirahət guşəsində işlə təmin olunanlardan biri turizm mütəxəssisi olmaqla, 4 nəfəri ali-təhsillidir. Xidməti işçilər də, əsasən, yerli gənclərdən ibarətdir. Artan tələb nəzərə alınaraq, kompleksdə yeni binanın inşası davam etdirilir. İdman və oyun zallarının da yaradılması nəzərdə tutulmuşdur. Ağbulaq İstirahət Kompleksinin həm yay, həm də qış turizm mərkəzi kimi gələcək perspektivləri nəzərə alınaraq, kompleksdəki yerlərin internet vasitəsilə sifarişinə imkan verən ***www.booking.com*** saytına qeydiyyat təmin olunmuşdur. Beləliklə, dünyanın istənilən yerindən bu sayt vasitəsilə səyahət həvəskarları Ağbulaq İstirahət Kompleksini asanlıqla taparaq buradakı şəraitlə virtual şəkildə tanış ola və Naxçıvana səfər haqda qərar verə bilərlər. Elə kompleksin özündə də istirahət edən qonaqlar sürətli internet və rabitə xidmətlərindən istifadə edirlər. Dövri qəzet və jurnalların da çatdırılması həll olunarsa, burada dincələn qonaqlara ölkəmiz və muxtar respublikamız haqqında vaxtında məlumatlar çatdırmaq mümkündür. Xülasə, Ağbulaqda gördüyümüz qış mənzərələri elə bir təəssüratla yekunlaşır ki, qısa bir dekabr gününün hardan keçdiyi belə hiss olunmadı.

*Bəzən qış turizmi üçün qar əsas şərtlərdən hesab olunsa da, göründüyü kimi, bu heç də belə deyilmiş. Qar bu yerlərdə həmişə olsa da, o, çox zaman insanların gündəlik həyatı üçün müxtəlif çətinliklərdən başqa bir şeyə yaramırdı. Soyuq qarı gəlir mənbəyinə çevirmək üçün indi hər imkanımız var. Qarşıda isə yeddigünlük bayram tətili günləri var. Qışı qış kimi keçirmək istəyən varsa, bu dağlara çıxmağa dəyər.*

✍ **Əli CABBAROV**

# "Araz-Naxçıvan" qış çempionudur

***Futbol üzrə Azərbaycan I divizionunun ilk dövrəsinin son turunda "Araz-Naxçıvan" futbol komandası Bakının "Qaradağ-Lökbatan" futbol komandasını qəbul etdi. Yeni ilə lider kimi qədəm qoymaq üçün Naxçıvan təmsilçisi turnir cədvəlində ən yaxın izləyicisini geridə qoymaq niyyətində idi. Muxtar respublika klubu bu arzusunu reallaşdırdı və ilin son matçında azarkeşləri önündə rəqibini minimal hesabla məğlub edərək liderliyini möhkəmlətdi.***

***Emin və Eşqinin yoxluğu***

Ən yaxın izləyicisi üzərində qələbə qazanmaq heç də asan deyildi. "Araz-Naxçıvan" futbol komandasının baş məşqçisi Əsgər Abdullayev bunu bilirdi və buna görə tədbirini görmüşdü. "Qaradağ-Lökbatan"ı məğlub edib ötən turdakı məğlubiyyətin təsadüf olduğunu sübut etmək üçün Naxçıvan təmsilçisi lökbatanlıları mütləq halda meydandan xalsız göndərmək istəyirdi. Qarın yağmasına baxmayaraq, bu oyunun hazırlıqlarına ciddi şəkildə adaptasiya olan "Araz-Naxçıvan"da Emin İmaməliyevin zədəli, Eşqin Quliyevin isə cəzalı olması baş məşqçini düşündürürdü. Doğma azarkeşlər önündə qələbə qazanmaq istəyən qırmızı-ağlar meydana, həmişə olduğu kimi, 4-3-3 taktikası ilə çıxmışdılar. Heyətdə yeganə dəyişiklik Fərman Qəmbərovun ilk 11-likdə meydana çıxması idi. Müdafiə xəttində Ruslan və Mikayılla yanaşı, Əlimirzə ilə Fərmana bel bağlayan Əsgər Abdullayev yarımmüdafiədə Akif-Elgiz-Cavid triosuna tapşırıqlar vermişdi. David Canıyev, Bəxtiyar Soltanov və Elmin Çobanov isə meydana qol ümidi kimi çıxmışdılar.



"Qaradağ-Lökbatan"ın bu oyunda ən böyük itkisi Anar Həsənovun cəzalı olması idi. Sarı vərəqə limitini dolduran yarımmüdafiəçi komandasının heyətində Naxçıvana gəlməmişdi. Həmçinin Murad Ağakişiyev də ilk 18-liyə daxil edilməmişdi. Əvəzində baş məşqçi Adil Mahmudov əsas futbolçuları – Ramal Hüseynov, İlham Allahverdiyev, Novruz Ələkbərov və Rüfət Məmmədovu meydana buraxmışdı.

***Bir olsun, bizim olsun***

Oyundan öncə hər iki komandanın niyyətinin 3 xal qazanmaqla liderlik olduğunu nəzərə alsaq, matçın sürətli başlayacağı məlum idi. Xüsusilə doğma fanatları önündə meydana çıxan "Araz-Naxçıvan" ilk dəqiqələrdən istəkli olduğunu nümayiş etdirdi. Ardıcıl hücumlar artıq 7-ci dəqiqədə öz bəhrəsini verdi. Hücumların birində rəqib müdafiəçilər topu uzaqlaşdırmaq istəsə də, qırmızı-ağların pressinqi komandamıza künc zərbəsi qazandırdı. Akif Tağıyevin mükəmməl asmasından sonra hamıdan yüksəyə tullanan Mikayıl Rəhimov başla gözəl qola imza atdı – 1:0. Bu qol müdafiəçimizin cari mövsümdə rəqib qapılarından keçirdiyi ikinci qol oldu. Artıq hesabda önə keçən qırmızı-ağlar rəqibi bundan sonra əks-hücumlarda yaxalamağa başladı. Rəqibin sərt oyunu diqqətdən yayınmırdı. Xüsusilə hücumlar zamanı müdafiəçilərin futbolçularımızın qarşısını kobudluqla almaları baş hakim Vüsal Əliyevin də səbrini daşırdı. Onun tez-tez oyunçulara xəbərdarlıq etməsinə baxmayaraq, dəyişən heç nə olmadı.

"Araz-Naxçıvan" isə hücumlarına ara vermədən davam edirdi. Cinahlarda Bəxtiyar Soltanov və Elmin Çobanovun uzun reydləri, driblinqləri sayəsində çaşbaş qalan rəqib müdafiəçilər 28-ci dəqiqədə daha bir epizodda qoldan xilas oldular. Belə reydlərin birində komanda yoldaşlarından ideal ötürmə alan David Canıyevin zərbəsi qapıdan azacıq aralı keçdi. Bir məqamda isə Əlimirzə Daşzərini qapını uzaqdan yoxlasa da, qapıçı sayıqlığını itirmədi. Rəqiblərin səylərinə baxmayaraq, ilk hissədə tablodakı hesab dəyişmədi.

İkinci hissəyə "Qaradağ-Lökbatan" iki əvəzetmə ilə başladı. Hücum xəttinə daha çox önəm verməyə başlayan Adil Mahmudov yetirmələrinə qapını uzaqdan yoxlamağı tapşırmışdı. Belə epizodların birində Novruz Ələkbərov Ramal Hüseynovun asmasından sonra topu yaxşı ram etsə də, qapıya zərbəsi dəqiq alınmadı. Rəqibin bu hücuma cavab isə Bəxtiyar Soltanovdan gəldi. Sağ cinahda uzun ötürmə aldıqdan sonra B.Soltanov qapıya doğru irəliləməyə başladı. Ancaq zərbəsi bir qədər dəqiq alınmayınca rəqib futbolçular rahat nəfəs aldılar. İkinci hissədə lökbatanlıların yaddaqalan bir epizodunda isə müdafiəçimiz Ruslan Abıyevin kobud səhvi diqqəti cəlb etdi. Belə ki, topu uzaqlaşdırmaq istəyən Ruslan az qala topu öz qapımıza göndərəcəkdi. Bu epizodda dərələcək sahibi Emil Balayev mükəmməl reaksiyası ilə yadda qaldı. Matçın son 10 dəqiqəsində meydana daxil olan hücumçumuz Rəhman Musayev yaşıl ota ayağını qoyan kimi toru silkələdi. Cərimə zərbəsindən edilən ötürməni R.Musayev başla qapıdan keçirsə də, yan xətt hakimi bayrağını qaldıraraq oyundankənar vəziyyətin olduğunu bildirdi. Bundan sonra hücumlar öz bəhrəsini verməyincə tablodakı hesab da dəyişməz olaraq qaldı. Bununla da, "Araz-Naxçıvan" futbol komandası cari mövsümdə 13-cü qələbəsini qazanmaqla liderliyini davam etdirdi.

*Qeyd edək ki, bu qələbə ilə xalını 40-a yüksəldən "Araz-Naxçıvan" futbol komandası dövrəarası fasiləyə qış çempionu kimi yollandı. Futbol üzrə divizionun ikinci dövrəsi fevral ayında başlayacaq və 16-cı turda komandamız səfərdə "Bakılı"nın qonağı olacaq.*

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Novruzov Baxşeyiş Qüdrət oğlunun adına olan gizirin SQ-0011561 nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

"Firuzə" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200134681) qeydiyyat sənədləri, möhür və ştampı itdiyindən etibarsız sayılır və müəssisə ləğv olunur.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Orucov Telman Əsəd oğlunun adına olan JN-725 inventar nömrəli, 10304018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Orucov Əsəd İsmayıl oğlunun adına olan JN-723 inventar nömrəli, 10304018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Orucov Kamil Əsəd oğlunun adına olan JN-724 inventar nömrəli, 10304018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 1155